

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 164 (21.316)

*22 avqust 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir





Avqustun 21-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün sizinlə əlamətdar gündə görüşürük. Əsası 1970-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və artıq 45 illik tarixə malik olan ali məktəblərə qəbulda yüksək nəticə göstərmiş tələbələrlə görüş ənənəsi Azərbaycan təhsilinə mühüm yeniliklər gətirmiş, onun inkişafına öz töhfəsini vermişdir.

Ali Məclisin Sədri əlamətdar gündə muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək tələbə adını qazanmış bütün məzunları, onların müəllimlərini və valideynlərini təbrik edərək demişdir: O dövlət inkişaf edir ki, onun güclü elmi potensialı var; orada təhsilin inkişafı əsas vəzifələr sırasındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu zərurəti nəzərə alaraq bildirmişdir ki, ***“Təbii sərvətlər tükənəcək, elm, bilik isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir”.***

Ali Məclisin Sədri demişdir: Hər bir xalqın tərəqqisi onun gənclərinin necə yetişdirilməsindən və təhsilin hansı səviyyədə təşkil olunmasından asılıdır. Bu gün Azərbaycanda ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyası davam etdirilərək öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Təhsili ölkənin və millətin gələcəyi üçün əsas vəzifə hesab edən ölkə Prezidentinin bu sahəyə diqqətinin nəticəsidir ki, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında təhsil infrastrukturu ilbəil müasirləşdirilir, yeni məktəb binaları, tədris korpusları tikilir. Son 10 ildə Naxçıvan Muxtar Respublikasında 66 min 736 şagird yerlik 165 məktəb binası tikilmiş və ya yenidən qurulmuşdur. Hazırda ümumtəhsil məktəblərində 3700 kompüter, 600-dən çox elektron lövhə vardır. Məktəblərdə interaktiv tədris metodlarından istifadə olunur, elektron və distant təhsil tətbiq edilir. Həmçinin müasir təhsil praktikası nəzərə alınaraq elm və ali təhsil müəssisələrinin elmi dərəcəsi olan əməkdaşlarının ümumtəhsil məktəblərində nümunəvi dərsləri də təşkil olunur. Həyata keçirilən bu tədbirlər təhsildə ciddi irəliləyişə səbəb olmuş, tədrisin keyfiyyəti artmışdır. Bu il muxtar respublikanın ümumtəhsil məktəbi məzunlarından 313-ü ali məktəblərə qəbulda 500-700 arasında bal toplamışdır. Bir məzunumuz isə ən yüksək nəticə göstərmişdir.

Göründüyü kimi, təhsil sahəsində həyata keçirilən tədbirlər keyfiyyət əmsalının artımı ilə yadda qalır. Bu tədbirlərin, çəkilən zəhmətin bir məqsədi var: o da ölkənin və xalqın sabahına cavabdeh olan bilikli və savadlı gənclər yetişdirməkdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Bizim hamımızın vəzifəsi Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, gəncləri Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu***



***işinə cəlb etməkdir”.***

Ali Məclisin Sədri demişdir: Bu gün dövlətimiz təhsil sahəsində qarşıda duran vəzifələri yerinə yetirmək üçün bütün tədbirləri görür. Ölkəmizdə müasir təhsil şəraiti vardır. Gənclərin sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır, onlar dövlət idarəçiliyində məsul vəzifələrə irəli çəkilirlər. Göstərilən etimad və qayğı isə, öz növbəsində, qarşıya yeni vəzifələr qoyur. Cəmiyyətdə layiqli yer tutmaq, vətənə və millətə faydalı olmaq üçün bundan sonra da yaxşı təhsil almalı, öz üzərinizdə daim işləməli, mütaliə etməli, bilik və dünyagörüşünüzü artırmalısınız. Hər bir gənc mütəxəssis hansı ixtisas üzrə təhsil almasından asılı olmayaraq, birinci növbədə Azərbaycan dilini və tarixini öyrənməli, milli dəyərləri, azərbaycanlılara məxsus adət-ənənələri dərindən mənimsəməlidir. Görkəmli maarifçi və pedaqoq Məhəmməd Tağı Sidqi vaxtilə qeyd edirdi ki, *“Elm bir çox kitabları oxuyub-yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir”.* Bu gün kitab oxumaq, yaxşı təhsil almaq işin yalnız bir tərəfidir. Əsas məsələ özünü yüksək ixtisaslı kadr kimi hazırlamaqdır. Ona görə də seçdiyiniz ixtisasa dərindən yiyələnməli, kamil mütəxəssis kimi yetişməlisiniz.

“Təhsilin bir vəzifəsi də vətənpərvər gənclər hazırlamaqdır. Vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik – Vətən naminə çalışmaqdan, Vətəni qorumaqdan, özünü mənsub olduğu xalqa layiq vətəndaş kimi hazırlamaqdan ibarətdir”, – deyən Ali Məclisin Sədri bu yolda tələbə-gənclərə uğurlar arzulamışdır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev demişdir ki, bu gün muxtar respublikada təhsilin inkişafına hərtərəfli qayğı göstərilir. Yaradılan şərait, aparılan quruculuq işləri təhsil infrastrukturunu tamamilə müasirləşdirmişdir. Bu il muxtar respublikanın şəhər, rayon və kəndlərində, ümumilikdə, 18 təhsil müəssisəsinin tikintisi və ya yenidən qurulması



davam etdirilir. Həyata keçirilən bu tədbirlər təhsildə keyfiyyət göstəricilərinin artmasına səbəb olmuşdur. Belə ki, muxtar respublikada 2015-ci ildə məktəbi bitirən 3331 məzundan 2638-i ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 1582-si tələbə adını qazanmışdır. Bu da sənəd verənlərin 60 faizini təşkil edir. Məzunlardan 36-sı xüsusi təyinatlı ali hərbi məktəblərə qəbul olmuşlar. Ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə sənəd verən məzunlardan isə 310-u tələbə adını qazanmışdır. Həmçinin bu il muxtar respublikanın ümumtəhsil məktəblərindən 977 şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd vermiş və onlardan 251-i liseyə qəbul olunmuşdur.

Piri Nağıyev demişdir ki, məzunlar ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük vermişlər. 2015-ci ildə 1137 nəfər, yaxud qəbul olanların 72 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişlər. Bundan başqa, məktəbi yüksək nəticələrlə başa vuraraq “Qızıl” və “Gümüş” medallara layiq görülmüş 28 məzun onlara göstərilən etimadı doğrultmuş, qəbul imtahanlarında 500-700 intervalında bal toplamışlar.

Valideyn Məlahət Həsənova çıxış edərək demişdir ki, bu gün muxtar respublika özünün yeni inkişaf mərhələsini yaşayır. Bu inkişafı hər bir naxçıvanlı öz həyatında hiss edir. Quruculuq tədbirləri sayəsində muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri, rayon mərkəzləri, kənd və qəsəbələr füsunkar bir görkəm almışdır. Bu günün reallığıdır ki, muxtar respublika əhalisinin rifah halı günü-gündən daha da yaxşılaşır, yaşayış səviyyəsi yüksəlir, hər bir sahədə böyük uğurlar qazanılır. Qazanılan uğurların və inkişafın özünü bariz şəkildə göstərdiyi sahələrdən biri də təhsildir. Zəngin maddi-texniki bazaya və müasir tədris şəraitinə malik təhsil müəssisələrinin sayı ilbəil artmaqdadır. Məktəblər ən müasir informasiya texnologiyaları, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təmin olunub. Əvvəllər xəyal olan distant təhsil indi reallıqdır. Yaradılan bu şərait gənclərin daha yaxşı təhsil almalarına geniş imkan açmışdır. Övladının 680 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olunduğunu bildirən Məlahət Həsənova gənclərin hərtərəfli təhsil alması üçün yaradılan şəraitə görə valideynlər adından minnətdarlıq etmişdir.

Qəbul imtahanlarında 700 bal toplayan Əli Allahverdiyev muxtar respublikada ənənə halını almış yüksək bal toplayan tələbələrlə görüşlərin keçirilməsini gənclərə və təhsilə göstərilən qayğının daha bir ifadəsi olduğunu bildirərək demişdir: Biz dünyanın qabaqcıl ölkələrinin inkişaf modelləri haqqında kitablardan oxumuşuq. İnkişafın müxtəlif yolları var. Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında isə inkişafın bir yolu var. O da ulu öndər Heydər Əliyev yoludur. Bu gün muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərində istifadəyə verilən

*Ardı 2-ci səhifədə*

məktəblər paytaxt Naxçıvan şəhərində və rayon mərkəzlərində inşa olunan məktəblərdən heç nə ilə fərqlənmir. Təhsil aldığım Zeyvə kənd tam orta məktəbi də müasir tədris müəssisəsinə çevrilib. Yaradılan şəraitə cavab olaraq öz məsuliyyətimi başa düşmüş, qəbul imtahanlarında 700 bal toplayaraq tələbə adını qazanmışam. Mən təkcə bununla yox, həm də onunla fəxr edirəm ki, qurucu şəxsiyyət və rəhbər Vasif Talıbov məktəbinin yetirməsiyəm!

Bugünkü görüşün təkcə muxtar respublika rəhbəri ilə yox, eyni zamanda gənclərin hamisi ilə görüş olduğunu bildirən Əli Allahverdiyev ali məktəblərə qəbul olunmuş bütün tələbələr adından söz vermişdir ki, savadlı, vətənpərvər gənclər kimi yetişəcək, Azərbaycan gəncliyinin adını doğruldacaq, qədim Naxçıvanın daha da çiçəklənməsinə öz töhfələrini verəcəklər.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Naxçıvan 2003-2013: hədəflər, inkişaf, nəticələr" kitabı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ağbulaqlılar xoş günlərini yaşayırlar

**Muxtar respublikanın ən füsunkar guşələrindən biri olan Şahbuz rayonunun bütün ucqar dağ və sərhəd məntəqələrində dəfələrlə olmuşam. Etiraf edim ki, bu kəndlərin hansına üstünlük vermək barədə düşünəndə seçim qarşısında qalmışam. Ancaq yenə cavab tapa bilməmişəm. Ulu Tanrının bu ünvanlara bəxş etdiyi təbii gözəlliklər insan qəlbinə bir təravət bəxş edir. Çoxlarına inanılmaz görünə bilər: göylərə boyverən dağlarının başından qar əriməmiş yamacları qırmızı lalələrlə dolu olur. Uzaqdan baxanda deyirsən, bəlkə, dağ yamacına xalı səriblər... Bu yaşayış məntəqələrinin hər birində kompleks quruculuq tədbirləri aparılıb. Quruculuq tədbirləri sırasında yolların müasir standartlar səviyyəsində salınması bu ünvanlara gedənlərə ilk baxışdan xoş təsir bağışlayır. Və istər-istəməz düşünürsən ki, bu ucqar kəndlərə dağ ətəklərindən və yamaclardan keçən belə yollar çəkilməsi böyük zəhmət və vəsait tələb edir. Ancaq insan amilinin öndə dayandığı muxtar respublikamızda bu çətinliklər dəf edilib.**



İsti yay günlərinin birində yolumuz rayonun ucqar dağ kəndlərindən biri olan Ağbulağadır. Müasirliyə qovuşan Ağbulaq bu gün özünün ağ günlərini yaşayır. Kəndə çathaçatda uzaqdan toy səsi eşidilir. Belə bir gündə bu yaşayış məntəqəsinə gəlməyimiz təsadüf olsa da, sevinirik. Sevinirik ki, yeni ailənin təməli qoyulur. Yeni ailənin təməli qoyulursa, deməli, yurd yerinin sabahına böyük inam var.

Rayon mərkəzindən bizə yol yoldaşlığı edən kənd tam orta məktəbinin müəllimi Firudin Məmmədov kəndin tarixindən danışır: Ağbulağın qədim tarixi var. Bu tarixi sübut edən faktlar çoxdur. Məsələn, 1990-cı ildə Antik dövrə aid yaşayış yeri qeydə alınıb. Sahəsi 1525 kvadratmetrdir. Buradan gil qab qırıqları, iki küp və sümük qalıqları əldə olunub. Tapıntılara əsasən, abidənin e.ə I və eramızın I-II əsrlərinə aid olması ehtimal edilir.

Ağbulaq nekropolu da Antik dövrə aid arxeoloji abidədir. Qəbirlər iri küplərdən ibarət olub. Qəbirlər dağılmış, iri küp qırıqları ətrafa səpələnmiş şəkildə tapılıb. Dağılmış sahədə iri qaya parçalarına da rast gəlinib. Qazıntılar zamanı iki qəbir tədqiq edilib. Birinci küp qəbir ağzı günbatana, şimal-qərb istiqamətində tapılıb. Ətrafı dördkünc formada bir cərgə daşla hörülmüş, küpün ağzına qara rəngli təkqulplu iri qab qoyulmuşdu. Küpün içərisi torpaqla dolmuş, skelet qalıqları çürümüş vəziyyətdə idi. Küp təmizlənərkən əqiq və şüşə muncuqlar, gil qab qırıqları və sair aşkar edilib. İkinci qəbir 50 metr aralıda, şimal-qərb istiqamətində idi. Skelet qalıqları, tunc bəzək əşyaları, gil qab qırıqları, muncuq, tunc sancaq, üzük və zınqırov, 1 ədəd mis pul və sair maddi-mədəniyyət nümunələri əldə olunub.

Firudin müəllimin bu maraqlı məlumatlarından sonra kəndin qədim tarixi haqqında ilk bilgilərimiz olur. Adətləri ilə maraqlanırıq. Həmsöhbətim deyir ki, bu barədə 85 yaşlı Leyla nənədən daha ətraflı öyrənmək olar. Onunla görüşmək üçün əvvəlcə Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mətləb Məmmədovla əlaqə saxlayırıq. Onunla üz tuturuq Leyla İsmayılovagilə. Yolboyu diqqətimi çəkən kəndin təmizliyi olur. İcra nümayəndəsi deyir ki, rayonun kənd yaşayış məntəqələrinin təmiz saxlanılması ilə bağlı aparılan reydlərin nəticələrinə görə, Ağbulaq kəndi birinci yerə çıxıb. Və bu anda düşünürəm ki, bir yeni layihə kimi muxtar respublikanın bütün yaşayış məntəqələri bu tədbirdən yararlana bilərlər. ...Budur, Leyla nənəgilin qapısına çatırıq. Bizi səmimiyyətlə qarşılayırlar. Ev uşaqla doludur. Öyrənirik ki, bu qayğısız, deyib-gülən, səs-küylərindən qulaq tutulan uşaqlar Leyla nənənin nəvə-nəticələridir. Yadıma "dövlətdə dəvə, övladda nəvə" məsəli düşür. Məlumat üçün bildirək ki, bu nurani el ağbirçəyi 9 övlad böyüdüb. Hamısını boya-başa çatdırıb, oxudub, ev-eşik sahibi edib. Övladlarından biri AMEA-nın müxbir üzvü Əyyub Quliyevdir. Əyyub müəllim yay məzuniyyətini kənddə keçirməyə gəlib. Tanış olub hal-əhval tuturuq. Çay süfrəsi arxasında şirin söhbət başlayır. Leyla nənə deyir ki, bu kəndin sakinləri qədim adət-ənənələri saxlamağı bacarırlar. Çünki kənddə ağsaqqal nəsihəti, ağbirçək məsləhəti yazılmamış qanundur. Adətlərimizin qorunmasında onlar öndə gedirlər. Ondan indi də əməl edilən toy adətlərimiz barədə soruşuruq. Üzünə təbəssüm qonur, bir qədər düşünür və deyir: "İvit yığma" adəti indi də toylarımızın bəzəyidir. Bu mərasim qız evində icra olunur. Qız-gəlinlər yeni ailə quran gəlinə öz imkanları dairəsində hədiyyələr gətirirlər. Kimisi şirniyyat, kimisi parça qismi, kimisi ətriyyat, kimisi qab-qacaq hədiyyə edir. Hədiyyələr bir nəfər tərəfindən toy həyətində musiqi sədaları altında elan olunur. Musiqinin səsi isə Üçqardaş, Papaqlı, Şiştəpə dağlarını lərzəyə salır. Leyla İsmayılova onu da əlavə edir ki, neçə illər qabaq bu adətə muxtar respublikanın bir neçə kəndində rast gəlib. Təəssüf ki, indi həmin adət unudulub.

Digər adətlər barədə məlumat verməyini xahiş edirik. Burada Əyyub müəllim söhbətə qarışır. Deyir ki, hansından deyim? Və mətbəximiz barədə danışaraq bildirir ki, süfrələrimiz həmişə milli yeməklərlə zəngin olub. Ağbulaqlılar israfçılığı sevmirlər. Hər il bir-iki dəfə kəndi, burada yaşayan qohum-əqrəbamı görməyə gəlirəm. Qismətimə düşən toy şənliklərində iştirak edirəm. İnanın, 20-30 il bundan qabaq gördüyüm süfrələrdən çox da seçilmir. Doğrudur, burada da yeniliklər tətbiq edilir. Ancaq hər şey qədərində olmalıdır. Sonra əlavə edir: – Əgər Ağbulaqda Qızlar bulağı, Qoşabulaq, Salvartı bulağı, Soyuqbulaq kimi təbii, suyu dişgöynədən bulaqlar, Ağbulaq və Şəfa kimi müalicəvi bulaqlar varsa, onda nə üçün ağbulaqlı öz ailə büdcəsindən kəsib toy mərasiminə insan orqanizminə heç bir xeyir verməyən su almalıdır? Heç bir ağbulaqlı öz xeyir və şər məclisində başqa yerdən ət almaz. Buna ehtiyac yoxdur. Çünki hər bir kənd adamının qapısından hər gün örüşə onlarla iribuynuzlu və xırdabuynuzlu heyvan çıxır. Kənd sakinləri toyuq-cücəsinin heç sayını bilmir. Kəndin təmiz havası və suyu ekoloji sağlam ət məhsullarının istehsalında başlıca amildir. Ağbulaqda yetişdirilən balın ətri uzaqdan adamı bihuş edir. Qonşu Faiq kişinin 70-ə, Zəringül Məmmədovanın 50-yə yaxın arı ailəsi var. Bildiyimə görə, kənddə 500-dən artıq arı ailəsi saxlanılır. Camaat həm də meyvəçiliklə məşğul olur. Hər bir həyətdə növ-növ ərik, alma, cəviz, alça, gavalı yetişdirilir. Bütün bunlar hər bir ağbulaqlının həm ev, həm də toy süfrəsinin bəzəyidir.

Əyyub müəllimin toya dəvətli olduğunu biləndə ayağa qalxırıq. Bizi də toya dəvət edir.Və bu dəvət elə səmimiliklə ifadə olunur ki, Əyyub müəllimi toyun sahibi hesab edirik. Deyir ki, bu kəndə gələn qonaq hər bir evin qonağıdır. Xüsusilə də toy günlərində. Hiss edirik ki, Əyyub müəllim, sözün həqiqi mənasında, maraqlı müsahibdir. Öz kəndinin tarixi, inkişafı ilə qürur duyan bu ziyalı yolboyu söhbətini davam etdirir: Bu gün Ağbulaqda yaşamasam da, doğma kəndimin qədim adət-ənənələrini qoruyub saxlamağına sevinirəm. Elə götürək Ağbulaq toylarını. Toy iki gün davam edir. Toylarda müxtəlif adətlərə əməl olunur. Etiraf edək ki, indi belə toyları neçə illər əvvəl çəkilmiş filmlərimizdə görürük. Mən yeniliyin tərəfdarıyam. Ancaq yenilik özü millilik üzərində dayanmalıdır...

İki il əvvəl açılışı olan kənd mərkəzi və Ağbulaq kənd tam orta məktəbinin yanında ondan ayrılmaq istəyirik. Bizi tək buraxmır. Onunla məktəb binasına daxil oluruq.

Öyrənirik ki, üç mərtəbədən ibarət olan 216 şagird yerlik məktəb binasında tədrisin səmərəli təşkili üçün lazımi şərait var. Məktəbdə müasir sinif otaqları, fənn kabinələri, 2280 kitab fonduna malik olan kitabxana, 6 kompüterin quraşdırıldığı kompüter sinfi, hərbi kabinə, biologiya, fizika, kimya fənlərinin əyani vəsaitlərlə öyrənilməsi məqsədilə laboratoriyalar yaradılıb. Təhsil ocağında elektron lövhəli siniflərdən səmərəli istifadə edilir.

Tədris olunan humanitar və dəqiq elmlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi, keçilən dərslərin məzmununun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi, interaktiv təlim üsullarının tətbiq olunması, elektron dərsliklərdən geniş istifadə edilməsi tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Təhsil ocağında məktəblilərin fiziki hazırlığı da nəzərə alınıb. İdman zalında mini-futbol, basketbol və idmanın digər növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb, həyətdə açıq idman qurğuları quraşdırılıb. Məktəbin direktoru Vidadi Məmmədov deyir ki, indiyə qədər Ağbulaq kəndində məktəb adına tikilmiş bina olmayıb. Dərslər uyğunlaşdırılmış binada keçilib. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qarşımıza mühüm vəzifələr qoyulduğunu bildirdi. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi ali məktəblərə qəbul imtahanları ilə ölçülür. Bu tədris ilində məktəbimizi bitirən 2 məzunun hər ikisi yüksək balla ali məktəb tələbəsi adını qazanıb. Çalışacağıq ki, qarşıdakı illərdə uğurlarımız daha çox olsun. Vidadi müəllim onu da diqqətə çatdırdı ki, məktəbdə şagirdlərin vətənpərvərlik tərbiyəsi, dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda formalaşdırılması böyük önəm verilən məsələlərdən biridir. Bu gün Ağbulaq məktəbi bu təhsil ocağının məzunu olmuş şəhid Afət Hüseynovun adını daşıyır. Onun keçdiyi şərəfli və qısa ömür yolu bugünkü Ağbulaq məktəbliləri üçün bir örnəkdir.

Məktəblə bir sırada bu yaşayış məntəqəsinə xüsusi yaraşıq verən kənd və xidmət mərkəzləri tikilib. Bu ünvanlara da baş çəkdik. Öyrəndik ki, kənd mərkəzində rabitə evi, Ağbulaq və Gömür kəndlərini əhatə edən polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kənd mədəniyyət evi, arxiv və 43 yerlik zal yerləşir. Rabitə evində quraşdırılan 384 nömrəlik avtomat telefon stansiyası abonentlərə yüksək səviyyədə xidmət göstərir. Burada poçt bölməsi də yaradılıb, "Naxtel"in baza stansiyası quraşdırılıb. Kənd mərkəzinin birinci mərtəbəsində feldşer-mama məntəqəsi yerləşir. Məntəqə üçün 3 iş otağı ayrılıb.

Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza kənd sakinlərinin istifadəsindədir.

Onu da əlavə edək ki, Ağbulaq kəndi də muxtar respublikanın digər yaşayış məntəqələri kimi tamamilə qazlaşdırılıb, elektrik enerjisinin fasiləsiz verilişi təmin olunub, mənzillər tam telefonlaşdırılıb. Bu ucqar dağ kəndinə fiber-optik kabel çəkilib, genişzolaqlı internetdən və digər rabitə xidmətlərindən istifadə imkanı yaradılıb. İndi isə yolumuz Ağbulaq İstirahət Mərkəzinədir. Məlumat üçün bildirək ki, ərazisi 3,5 hektar olan mərkəz 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Otaqlarda istirahət üçün hər cür şərait yaradılıb. Kompleksin ərazisinə 2 kilometr məsafədən içməli su xətti çəkilib, həyətdə futbol meydançası yaradılıb, uşaq əyləncə qurğuları quraşdırılıb. 2013-cü ilin iyul ayının 24-də istifadəyə verilən bu mərkəz muxtar respublikamızda turizmin bir çox növlərinin inkişafı üçün mövcud olan təbii imkanlardan istifadəyə ciddi önəm verilməsinin bariz ifadəsidir. Ötən müddət ərzində yüzlərlə məktəbli və tələbə, sosial müdafiəyə ehtiyacı olan ailələrin övladları, məhdud fiziki imkanlı uşaqlar dövlət hesabına bu mərkəzə istirahətə göndəriliblər.

*Kənddə olduğumuz qısa müddətdə Ağbulaq bizdə zəngin təəssüratlar yaratdı. Bir vaxtlar ucqar dağ kəndlərinin belə mənzərəsini xəyalımıza da gətirə bilməzdik. Ancaq bu da var ki, insan amili öndə duran yerdə xəyallar da həqiqətə çevrilə bilər. Bu həqiqəti muxtar respublikamızın istənilən bölgəsində görmək mümkündür. Bizim gördüyümüz Ağbulaq kimi.*

**✍ Muxtar MƏMMƏDOV**

# Culfa rayonunda sığorta işi ilə bağlı tədbir

*Avqustun 21-də Culfa Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilmişdir. Yığıncağı Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır. Baş direktor cəmiyyətdə sığortanın əhəmiyyətindən danışaraq bildirmişdir ki, muxtar respublikamızın müasir sosial-iqtisadi inkişafı cəmiyyətdə müxtəlif sığorta növlərinin də bir tələbat kimi geniş yayılmasını şərtləndirir. Vaxtında sığorta olunmağın üstünlüklərindən bəhs edən Hikmət Əsgərov bunun sığortalı vətəndaşlara olan faydalarını da diqqətə çatdırmışdır. Bildirilmişdir ki, hazırda cəmiyyətimizdə insanların sağlamlığına, əmlakına və mülki məsuliyyətinə verilən sığorta təminatı onları gözlənilməz hadisələrə qarşı hazırlıqlı edərək ümumi rifahımıza xidmət edir. Qeyd olunmuşdur ki, hər hansı bir gözlənilməz hadisə və ya qəza baş verdikdə bağlanılmış sığorta müqaviləsi əsasında alınan ödənişlər sığorta hadisəsindən zərərçəkən insanların maddi vəziyyətini bərpa etmək, onu yüngülləşdirmək, zərərləri aradan qaldırmaq üçün mühüm bir vasitədir.

Kənd təsərrüfatında da sığortanın vacibliyindən bəhs edən baş direktor qeyd etmişdir ki, dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu sahənin inkişafı üçün Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Baş Sığorta Agentliyi tərəfindən kənd təsərrüfatında sığorta işinin təşkilinə diqqətin artırılmasının, istehsalçıların mümkün sığorta hadisələri barədə maarifləndirilməsinin vacibliyini vurğulamışdır.

Tədbirdə Culfa rayonunda sığorta sahəsində görülmüş işlər təhlil olunaraq qeyd edilmişdir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bağlanmış sığorta müqavilələrinin sayında artım müşahidə olunsa da, rayonda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə müqavilə bağlamayan vətəndaşlar, hüquqi və fiziki şəxslər hələ də vardır. Vurğulanmışdır ki, Culfa rayonunda fərdi qəza və ev əmlakının sığortası üzrə də işlərin genişləndirilməsi və Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyektinin sığorta olunması qarşıya qoyulan vəzifədir.

Hikmət Əsgərov sığorta müqavilələrinin bağlanılması, sığortahaqlarının hesablanması, baş vermiş sığorta hadisələri üzrə sığorta məbləğlərinin ödənilməsi barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Sonra çıxışlar olmuşdur. Çıxışlarda görülmüş işlər barədə məlumat verilmişdir.

**✍ Əli CABBAROV**

*Bəşər sivilizasiyasının ilkin dövrünün yadigarlarından biri I Kültəpə abidəsi Babək rayonu ərazisində, Naxçıvan çayının sol sahilindəki eyniadlı kənddə yerləşir. 1951-ci ildə Azərbaycan Elmlər Akademiyasi Tarix İnstitutunun arxeoloji ekspedisiyası Osman Həbibullayevin rəhbərliyi ilə I Kültəpədə sistemli tədqiqat işlərinə başlamışdır.*

Axtarışlar, tapıntılar

# Kültəpə Naxçıvan Muxtar Respublikası ərazisində Neolit dövrünə aid olan ən nadir abidələrdən biridir







1951-1963-cü illərdə aparılan tədqiqatlar zamanı ilk qazıntı sahəsindən müxtəlif dövrlərə aid dörd mədəni təbəqə aşkar edilmişdir. Əvvəlcə abidənin Neolit dövrünə aid olması ilə bağlı müxtəlif fikirlər söylənilib. Lakin sonralar tədqiqatçılar bunu inkar edərək abidənin Eneolit dövrünə aid olması ilə bağlı fikirlər irəli sürüblər. Ümumiyyətlə, Kültəpə stratiqrafiyasına görə, Eneolit, Erkən Tunc, Orta Tunc və Son Tunc dövrlərini əhatə edən çox nadir abidələrdən biridir. Lakin Kültəpənin Neolit dövrünə aidliyi mübahisəli olduğuna görə AMEA Naxçıvan Bölməsinin xüsusi arxeoloji ekspedisiyası, eyni zamanda Azərbaycan-Fransa arxeoloji ekspedisiyası məhz buranı tədqiqat obyekti seçmişdir.

Məlumat üçün bildirək ki, Kültəpədə tədqiqat işlərinə 2013-cü ildən başlanılmış və burada kəşfiyyat xarakterli araşdırmalar aparılmışdır. 2014-cü ildə də tədqiqat işləri davam etdirilmişdir. Avqust ayının 1-dən burada yenidən tədqiqat işlərinə start verilmişdir. Bütün bunları tədqiqat aparılan ərazidə qəzetimiz üçün müsahibə verən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, arxeoloji ekspedisiyanın rəhbəri Vəli Baxşəliyev dedi. O, Kültəpə yaşayış yerinin Naxçıvan Muxtar Respublikası ərazisində Neolit dövrünə aid ən nadir abidələrdən biri olduğunu xüsusilə vurğuladı. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Kültəpənin hazırda qalan maddi-mədəniyyət qalıqları Son Neolit və Eneolit dövrlərinin əvvəllərini əhatə edir. Bəzi qisimlərdə Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları da vardır. İndiyə qədər burada aşkar olunan maddi-mədəniyyət nümunələrinin Azərbaycan arxeologiyası üçün mühüm olmasına baxmayaraq, yeni tədqiqatların da böyük əhəmiyyəti vardır. Çünki Sovetlər Birliyi dövründə aparılan tədqiqatlar yüksək səviyyədə olmadığına, fotoşəkillər kifayət qədər yaxşı qalmadığına və əksəriyyəti itibatdığına görə yeni tədqiqatlara ehtiyac yaranmışdı. Ona görə də tədqiqatlar vasitəsilə evlərin planının, abidənin stratiqrafiyasının yerində müəyyənləşdirilməsi və əhalinin həyat tərzi ilə bağlı yeni maddi-mədəniyyət nümunələrinin əldə edilməsi tariximiz üçün olduqca böyük əhəmiyyət daşıyır.

"Hazırda aparılan tədqiqatlar qədim dövrdə Kültəpə sakinlərinin, daha doğrusu, qəbilə, tayfa üzvlərinin böyük hasarlarla əhatə olunmuş kiçik evlərdə yaşadığını sübut edir", – deyən Vəli müəllim diqqətə çatdırdı ki, bir həyətin içərisində bir neçə evin olduğu artıq arxeoloji qazıntılar zamanı təsbit edilmişdir. Tədqiqatlar zamanı Son Neolit və Eneolit dövrlərinə aid qəbir abidələri, skelet qalıqları aşkara çıxarılmışdır. Aşkar olunan nümunələr müasir texnologiya tətbiq edilməklə tədqiq olunur.

Arxeoloq əlavə edir:

– Aparılan tədqiqatlar onu göstərir ki, Kültəpədə Neolit dövrünün sonunda, eramızdan əvvəl VII minilliyin sonundan başlayaraq yaşayış olmuşdur. Halbuki Sovetlər Birliyi dövründəki araşdırmalarda Kültəpədə ən qədim tarix eramızdan əvvəl 4800-cü ili əhatə edir. İndi isə 6200-6100-cü illəri göstərən faktlar əlimizdə vardır. Belə hesab edirik ki, gələcək tədqiqatlar zamanı daha qədim dövrlərə aid olan maddi-mədəniyyət nümunələri də əldə olunacaqdır. Kültəpə abidəsinin ətrafında aşkar olunan abidələrdə də biz tədqiqatlar aparırıq. Və bu abidələr kompleks şəkildə Son Neolit və Eneolit dövrlərinin müxtəlif mərhələlərinin ardıcıl inkişafı haqqında məlumat verəcəkdir. Halbuki indiyə kimi Neolit, eyni zamanda Eneolit dövrlərinin müxtəlif dövrləri haqqında kifayət qədər məlumat yox idi. Bildiyimiz kimi, 10 ilə yaxındır, Ovçular təpəsi abidəsində tədqiqatlar aparılır. Və orada Son Eneolit dövrünün qalıqları vardır. Kültəpədə isə Eneolit dövrünün erkən mərhələsi vardır. Orta mərhələ isə, hələlik, yoxdur. Və biz belə hesab edirik ki, Kültəpə ətrafında tapılan Eneolit abidələri bu boşluğu doldurmağa imkan verəcəkdir. Bizim də məqsədimiz bu boşluğu doldurmaq və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın qədim tarixini bərpa etməkdən ibarətdir.

Tədqiqat yerində Fransa Milli Araşdırma Mərkəzinin elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Remi Berthonla söhbətləşdik. Onun dediklərindən:

– Mən Kültəpədə heyvan sümükləri üzərində araşdırmalar aparıram. Tədqiqatlar zamanı heyvan sümüklərinə rast gəldim. Bu, imkan verəcək ki, mən qədim insanların burada hansı heyvanlardan istifadə etdiyini biləm. İlkin məlumat olaraq deyə bilərəm ki, daha çox ev heyvanlarından istifadə olunub. Maraqlıdır ki, donuz ətindən, ümumiyyətlə, istifadə etməyiblər. İstifadə olunan heyvanlar, zənnimcə, yaylaqlara aparılıb. Bu da onu göstərir ki, 8000 il bundan əvvəl artıq insanlar yaylaqlardan istifadə etməyə başlayıblar. Əldə etdiyimiz nəticələr Neolit və Eneolit dövrlərinin müxtəlif mərhələlərində Kültəpə qədim yaşayış yerində yaşayan insanların həyat tərzi haqqında məlumat verəcək. Araşdırmalarımız sentyabr ayının 1-nə kimi davam edəcək.

Qeyd edək ki, hazırda Duzdağ ərazisində də tədqiqat işləri davam edir. Məlum olduğu kimi, 2006-cı ildən Duzdağda tədqiqat işləri aparılır. Əvvəlki tədqiqat işlərində müəyyən nəticələr əldə olunmuşdur. Bu tədqiqatlar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, e.ə. 4-cü minillikdə bu, daha geniş miqyas almışdır. Tədqiqatçılar Duzdağı dünyanın ən qədim duz çıxarılan mədənin yerləşdiyi ərazi hesab edirlər. Vəli müəllim bildirdi ki, hazırda Duzdağda qədim qalereyaların, mədənlərin strukturu, ən qədim mədənlərin forması, hansı texnikalardan istifadə olunaraq duz çıxarılması ilə bağlı məlumatların əldə olunması istiqamətində tədqiqat işləri aparılır. Müəyyən nəticələr əldə edilmişdir. Aparılan araşdırmalar göstərir ki, Eneolit dövrünün sonu, Erkən Tunc dövrünün əvvəllərindən başlayaraq qədim mədənçilər açıq üsulla duz çıxarmışlar. Duzların yer səthinə çıxan hissələri insanlar tərəfindən istifadə olunmuşdur. Əmək alətləri primitiv olduğu üçün bu üsuldan daha geniş istifadə edilmişdir. Həm də bu üsul asan olmuşdur. Lakin sonradan əmək alətləri təkmilləşdikcə insanlar daha dərin quyular, hətta qalereyalar qazmaq kimi üsullardan istifadə edərək duz çıxarmışlar.

Sara ƏZİMOVA

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti açıq ürək əməliyyatları aparılır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir. Bu sahədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası ilə qarşılıqlı əməkdaşlıq artıq ənənə halını alıb. Bu ilin ilk 6 ayı ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin yüksəkixtisaslı həyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 96 nəfərdə müayinə, 58 nəfərdə açıq ürək əməliyyatı aparıb.

Həmçinin Diaqnostika-Müalicə Mərkəzinin həkimləri tərəfindən ötən yarımildə 120 nəfərdə koronarangioqrafiya əməliyyatı aparılıb, ehtiyacı olan 16 nəfərə stent qoyulub, 1 nəfərdə isə aşağı ətrafın amputasiyası həyata keçirilib.

Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin kardiocərrahı Seymur Musayevin rəhbərlik etdiyi 11 nəfərlik heyət bu il yeddinci dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə dəvət olunub. Cərrah, anestezioloq və əməliyyat tibb bacıları ilə təmsil olunan heyətə bu gündən Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin müdiri, ürək və damar cərrahı Rəşad Mahmudov da qoşulacaq.

Heyət əvvəlcədən qeydiyyata götürülmüş risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirib, kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr, 14 nəfər üzərində isə açıq ürək əməliyyatı aparılmasına göstəriş verib.

Ötən şənbədən başlayaraq 7 kardioloji xəstə üzərində açıq ürək-aortakoronar şuntlama, qulaqcıqlararası defektin aradan qaldırılması, süni qapaqcıqların qoyulması, fallo tetradası, botal axacağın bağlanması kimi mürəkkəb əməliyyatlar aparılıb. Bir xəstə üzərində isə qarın aortasının anevizması icra olunub.

Heyət xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırır, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlayır. Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimləri ilə yanaşı, əməliyyat, reanimasiya, palata tibb bacıları da yaxından iştirak edirlər.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə dəvət olunmuş daha bir yüksəkixtisaslı həkim – akademik Mustafa Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi Uşaq kardiocərrahiyyə şöbəsinin invaziv kardioloqu Elnur İmanov əvvəlcədən qeydiyyata alınmış 21 xəstə üzərində yerli həkimlərlə birgə exokardioqrafiyanın çəkilməsi və müalicəsi ilə məşğul olub, əməliyyata ehtiyacı olan anadangəlmə ürək qüsurlu uşaqları müəyyənləşdirərək onların qapalı ürək əməliyyatına göstəriş verib. Bu əməliyyatları aparmaq üçün Akademik Mustafa Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi Uşaq kardiocərrahiyyə şöbəsinin heyəti yaxın günlərdə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində anadangəlmə ürək qüsurlarının müalicəsi – ağciyər arteriyanın və aorta qapağının qapaqsal darlığının ortadan qaldırılması, açıq arterial axacağın bağlanması, aorta koartasiyanın balon valvuloplastikası, qulaqcıqlar və mədəciklər arası çəpərin invaziv üsulu ilə bağlanması, uşaqlarda aritmiyaların müalicəsi, açıq ürək əməliyyatı olmuş anadangəlmə ürək qüsurlu uşaqların əməliyyatdan sonrakı dövrdə müayinəsi və müalicəsi ilə məşğul olacaqdır.

*Sağlamlıq imkanları məhdud olan insanlara, o cümlədən əlillərə, xroniki xəstələrə qayğı muxtar respublikamızda həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biridir. Belə qayğı ardıcıl xarakter daşıyır və məqsədyönlü şəkildə həyata keçirilir.*

## Əlillərin tibbi reabilitasiyası diqqət mərkəzindədir

Məlumat üçün bildirək ki, ahılyaşlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə dövlət proqramının icrası məqsədilə təkcə ötən il ərzində 80 yaşdan yuxarı ahılların dispanserizasiyası aparılmış, qeydiyyatda olan 37 min 68 nəfər ahıl müayinədən keçirilmişdir.

2015-ci ilin birinci yarısında əlillərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən 100 nəfər Bakı şəhərindəki Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 178 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 89 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

Nazirlik tərəfindən iyul ayında da bu istiqamətdə tədbirlər davam etdirilmişdir. Belə ki, ay ərzində muxtar respublika üzrə 29 nəfər Əlillərin Müalicə Pansionatında, 28 nəfər Müharibə və Əmək Veteranları Pansionatında, 17 nəfər isə müxtəlif xəstəxanalarda müalicə almışdır.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Culfa Rayon Məşğulluq Mərkəzində növbəti əmək yarmarkası keçirilib

Tədbiri giriş sözü ilə Culfa Rayon Məşğulluq Mərkəzinin direktoru Yalçın Hüseynov açaraq bildirib ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın uğurlu icrası yoxsulluğun nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarıb. Həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Qeyd olunub ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib.

Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımov çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində bəhs olunan dövrdə minlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran əhalinin marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

İşaxtaran vətəndaş Rüstəm İbrahimov dövlətimiz tərəfindən əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlər üçün minnətdarlığını bildirərək deyib ki, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir. Belə tədbirlər əhali tərəfindən rəğbətlə qarşılanır, onların müvafiq işlə təmin olunmaq imkanlarını artırır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 20 təşkilatdan 169 boş iş yerinin çıxarıldığı yarmarkada 33 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası avqust ayının 25-də Ordubad rayonunda keçiriləcək.

Xəbərlər şöbəsi

*Avqustun 23-də Füzuli və Cəbrayıl rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 22-ci ildönümü tamam olur. Qeyd edək ki, 1993-cü il avqustun 23-də işğal olunan Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Ərazisi 1386 kvadratkilometrdir. İşğala qədər rayonda 1 şəhər, 1 şəhərtipli qəsəbə, 75 kənd olub. İndi onların bir qismi işğal altındadır, bir qismi isə işğaldan azad edilib. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd var. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilib. Hazırda ərazidə 50 min nəfərdən çox məcburi köçkün məskunlaşıb.*

# Cəbrayıl və Füzuli rayonlarının işğalından 22 il ötür





Ermənilərin Füzuli və Cəbrayıl rayonlarının ərazilərini işğal etməsi Azərbaycana milyardlarla dollar ziyan vurub. Təkcə Cəbrayıl rayonunun işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına dəyən ziyan 3 milyard dollardan çoxdur. İqtisadçılar bildirirlər ki, əgər Cəbrayıl rayonu işğal olunmasaydı, indi hər il Azərbaycan iqtisadiyyatına milyonlarla manat xeyir verərdi. Çünki rayonda bir çox sahələr, o cümlədən üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq inkişaf etmiş kənd təsərrüfatı sahələrindən sayılıb. Bu gün də köçkünlük həyatı yaşayan bu insanların böyük bir qismi yenə də aqrar sektorda çalışır. Onu da vurğulamaq lazımdır ki, aparılan hesablamalara görə, işğal altında 14 mindən çox daşınmaz əmlak qalıb. Qeyd edək ki, Cəbrayıldan olan 60 mindən çox məcburi köçkün respublikamızın 58 rayonunun 2000-dən artıq yaşayış məntəqəsində məskunlaşıb. Xatırladaq ki, 1993-cü il avqustun 23-də ərazisi 1050 kvadratkilometr olan Cəbrayılın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb.

### Horadiz əməliyyatı...

...1993-cü ilin avqustunda cəbhənin bütün istiqamətlərində əks-hücuma keçən ermənilər Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizədən yararlanıb Füzuli şəhərini işğal etdilər. Bundan sonra düşmən qüvvələri bir neçə istiqamətdə Arazboyu yaşayış məntəqələrinə doğru irəlilədilər. Məqsəd regionda strateji cəhətdən ən əhəmiyyətli, regional kommunikasiyaların kəsişdiyi Horadiz qəsəbəsinin ələ keçirilməsi idi. Horadizin işğalı ilə, eləcə də Əhmədbəyli kəndi istiqamətində "Dörd yol" deyilən əraziyə çıxmaqla düşmən o zaman işğal olunmamış Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını faktiki olaraq blokadaya salırdı. Horadiz qəsəbəsinin müdafiəsini Sərhəd Qoşunlarının burada yerləşən komendantlığı təşkil etmişdi. Bir neçə gün davam edən döyüşdən sonra qüvvələrin qeyri-bərabər olması səbəbindən sərhəd zastavası mövqelərini tərk edərək geri çəkilir. Ermənilər Horadiz qəsəbəsini və İranla sərhəddə yerləşən su anbarı üzərindəki körpünü tutur. Qəsəbədəki bütün inzibati və yaşayış binaları, neft bazası, dəmir yolu vağzalı və sair yandırılır. Qeyd etdiyimiz kimi, Horadizin işğalı ilə digər rayonlar faktiki olaraq blokadaya düşür. Araz boyunca Beyləqana doğru irəliləyən düşmən qüvvələri Arayatlı, Babı, Əhmədalılar, Kərimbəyli, Araz Yağlıvənd kəndlərini işğal edir. 1993-cü il noyabrın 7-də ermənilər 400 nəfərə yaxın canlı qüvvə, 30-a yaxın tank və zirehli transportyorun iştirakı ilə rayonun ən böyük yaşayış məntəqəsi olan Böyük Bəhmənli kəndinə hücuma keçir. Kəndin bir hissəsini işğal edən düşmən qüvvələri Azərbaycan Silahlı Qüvvələrinin ciddi müqaviməti ilə qarşılaşır. Bu kənddə yerləşən sərhəd zastavasının 30 nəfər şəxsi heyəti qəhrəmanlıq nümayiş etdirərək 2 gün ərzində düşmənin bütün hücumlarını dəf edir. Düşmən xeyli sayda canlı qüvvəsini bu döyüşlərdə itirir. Sərhədçilər də bir neçə şəhid verir. İki aya yaxın davam edən qanlı döyüşlər zamanı ermənilər Böyük Bəhmənli kəndinin bir hissəsini işğal etsələr də, kəndi tam ələ keçirməyə nail olmurlar. Dekabr ayında yenidən hücum edən düşmən bu dəfə Daxili Qoşunların müqaviməti ilə qarşılaşır. Daxili Qoşunların 5 əsgəri düşmən tankı ilə qeyri-bərabər döyüşdə geri çəkilməyərək həlak olur. Düşmən də bir neçə texnikasını itirərək yenidən geri çəkilir. Ümummilli liderimiz Heydər Əliyevin orduda apardığı islahatlar nəticəsində 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycan Silahlı Qüvvələri Araz boyunca və Əhmədbəyli-Kürdmahmudlu-Alxanlı kəndləri istiqamətində əks-hücuma keçir. İki gün davam edən döyüşlərdə Azərbaycan ordusu Horadiz qəsəbəsini və ətraf kəndləri düşməndən təmizləyir. Ermənilər bir neçə yüz nəfər canlı qüvvə itirir. Alxanlı istiqamətində hücum edən qüvvələrimiz isə Qaraxanbəyli, Qorqan kəndlərinədək irəliləməyə nail olur.

Bu uğursuzluqdan sonra düşmən nəhayət atəşkəs sazişini imzalamağa məcbur olur və 1994-cü il may ayında Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi imzalanır. O zamandan cəbhə xəttinin digər hissələrində olduğu kimi, Füzuli rayonunda da "nə hərb, nə sülh" vəziyyəti hökm sürür. Atəşkəs müqaviləsi imzalanmasına baxmayaraq, cəbhənin bütün istiqamətlərində olduğu kimi, Füzuli rayonu ərazisində də tez-tez atəşkəs pozulur. Rayon üçün digər bir problem işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsidir. Atəşkəs razılaşması imzalandıqdan sonra Füzuli rayonu ərazisinin minalardan təmizlənməsi işlərinə başlanılıb.

### Azərbaycan ordusu işğal olunmuş əraziləri azad etməyə hazırdır

Füzuli və Cəbrayıl rayonlarının işğalı ərəfəsində Azərbaycanda hakimiyyət yenicə dəyişmişdi, özünü müdafiə edə bilməyən, xalqını, müstəqilliyini qoruya bilməyən AXC-Müsavat cütlüyü ulu öndər Heydər Əliyevi hakimiyyətə çağırmağa məcbur olsalar da, sonra Onu hakimiyyətdən devirmək üçün bacardıqları hər şeyi etdilər. Özlərinə məxsus olan hərbi dəstələri döyüş zonalarından geri çəkdilər, bir sıra təxribat halları törətdilər, bunun nəticəsində də çox əhəmiyyətli bir bölgə olan Füzuli və Cəbrayıl rayonları işğal olundu. Bununla da, Azərbaycanın Naxçıvanla və digər rayonlarla əlaqəsi kəsildi. Nəticədə, Azərbaycanın artıq 20 faizi ermənilərin işğalı altına düşdü. Bütün bunlara ümumi yanaşmaq lazımdır. Təkcə məhz Füzuliyə ayrıca qiymət vermək lazım deyil. Çünki bütün bu hadisələr ona qədər baş vermişdi və Füzulinin işğalı yalnız avqustun 23-də reallaşdı.

Lakin düşmənin sevinci müvəqqətidir. Ölkəmizdə aparılan siyasət bunu deməyə əsas verir ki, Azərbaycan öz torpaqlarında suveren hüquqlarını mütləq bərpa edəcək. Füzulinin işğal altında olan ərazilərindən fərqli olaraq, işğaldan azad edilmiş ərazilərində böyük abadlıq işləri görülüb. Azərbaycanın hərtərəfli inkişafı, hər bir insanın həyat şəraitinin yaxşılaşması, eyni zamanda Milli Ordumuzun güclənməsi və bu gün ən müasir standartlara cavab verən Silahlı Qüvvələrimizin mövcud olması qalibiyyəti gətirəcək. Bu gün əgər biz Füzulini, Ağdamı, eləcə də digər rayonlarımızı, bütövlükdə, Azərbaycanı inkişaf etdiririksə, bu inkişaf etmiş Azərbaycanı qorumaq da bizim vəzifəmiz və borcumuzdur. Biz nəinki bu ölkəni qoruyacağıq, eləcə də işğal altında olan ərazilərimizi işğaldan azad edəcəyik və o rayonlarımızı da digər rayonlarımız qədər inkişaf etdirəcəyik. Biz buna qadirik və buna qadir olduğumuzu bu illər ərzində göstərdik. Azərbaycan bu gün çox güclüdür və Ermənistan bizimlə güc dili ilə danışa bilməz. Ölkəmizin malik olduğu üstünlüklər – onun haqlı, ədalətli mövqeyi, beynəlxalq hüququn prinsiplərinin Azərbaycanın tərəfində olması imkan verir ki, dövlətimiz istər hüquq müstəvisində, istər siyasi müstəvidə, istərsə də hərbi müstəvidə bu məsələni həll etsin.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Horadizdə işğal zamanı dağıdılmış evlərin və çoxmənzilli binaların bərpasından sonra istifadəyə verilməsi mərasimindəki çıxışında demişdir: ***"İndi ordumuz daha da güclüdür. İndi imkanlar daha da genişdir. Ruh yüksəkliyi isə Azərbaycan xalqında həmişə olub. Həmişə də yüksək səviyyədə olub. Bu gün də belədir. Vətənpərvərlik ruhu, milli ruh. Bizim iqtisadi, hərbi gücümüz, bu amillər məsələni həll edəcək. Biz qayıdacağıq, nəinki Füzuliyə, Şuşaya da qayıdacağıq".***

**Hazırladı: ✍ Səbuhi HÜSEYNOV**

## Ordubad rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika və astronomiya | | Kimya | | Biologiya | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | İTPM | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Ordubad şəhər 1 №-li tam orta məktəb | 1 | | | | | | | 1 | 6 | | | | | | | | | | | | | | | | | 1 | 6 |
| 2. | Əndəmic kənd tam orta məktəbi | 4 | | | | | | | | | | | | | | | | | | | | | 1 | | | | 1 | 0 |
| 3. | Gənzə kənd tam orta məktəbi | 9 | | | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 12 |
| 4. | Aşağı Əylis kənd tam orta məktəbi | 8 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 1 | 18 |
| 5. | Dəstə kənd 1 №-li tam orta məktəb | 14 | | | | | 1 | 15 | | | | | 1 | 20 | | | | | | | | | | | | | 2 | 35 |
| 6. | Dəstə kənd 2 №-li tam orta məktəb | 14 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 18 | 2 | 30 |
| 7. | Dizə kənd tam orta məktəbi | 16 | | | | | | | | | | | | | | | 1 | 9 | 1 | 10 | | | | | | | 2 | 19 |
| 8. | Vənənd kənd tam orta məktəbi | 18 | | | 1 | 18 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 2 | 30 |
| 9. | Vələver kənd tam orta məktəbi | 19 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 10. | Dırnıs kənd tam orta məktəbi | 27 | 1 | 15 | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | 3 | 39 |
| 11. | Kələki kənd tam orta məktəbi | 29 | 1 | 18 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 |
| 12. | Unus kənd tam orta məktəbi | 30 | 1 | 15 | 1 | 12 | | | | | 1 | 18 | | | | | | | | | | | | | | | 3 | 45 |
| 13. | Pəzməri kənd ümumi orta məktəbi | 36 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 14. | Düylün kənd tam orta məktəbi | 20 | | | 1 | 12 | | | | | | | | | | | 1 | 10 | | | | | | | | | 2 | 22 |
| 15. | Çənnəb kənd tam orta məktəbi | 22 | | | 1 | 18 | | | | | | | | | 1 | 14 | | | | | | | 1 | | | | 3 | 32 |
| 16. | Üstüpü kənd tam orta məktəbi | 29 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 17. | Azadkənd tam orta məktəbi | 22 | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | 1 | 12 | | | | | 3 | 36 |
| 18. | Aza kənd kənd tam orta məktəbi | 22 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 18 | 1 | 18 |
| 19. | Baş Dizə kənd tam orta məktəbi | 25 | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | 1 | 15 | 3 | 39 |
| 20. | Gilançay kənd tam orta məktəbi | 28 | | | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | 1 | 12 | 1 | 12 | | | 1 | 24 | 5 | 72 |
| 21. | Biləv kənd tam orta məktəbi | 41 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 22. | Behrud kənd tam orta məktəbi | 42 | | | | | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | | | | | 2 | 24 |
| 23. | Tivi kənd tam orta məktəbi | 44 | | | | | | | | | 1 | 18 | | | | | | | | | | | | | | | 1 | 18 |
| 24. | Bist kənd tam orta məktəbi | 58 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| 25. | Nürgüt kənd tam orta məktəbi | 68 | | | | | 1 | 22 | | | 1 | 22 | | | | | | | | | | | | | 1 | 20 | 3 | 64 |
| 26. | Nəsirvaz kənd tam orta məktəbi | 65 | 1 | 18 | 1 | 18 | 1 | 24 | | | | | | | | | | | | | | | | | | | 3 | 60 |
| 27. | Əlahi kənd ümumi orta məktəbi | 62 | | | | | | | | | 1 | 4 | 1 | 2 | | | | | | | | | | | | | 2 | 6 |
| | Cəmi: | | 4 | 66 | 6 | 90 | 3 | 61 | 5 | 54 | 5 | 74 | 10 | 118 | 2 | 26 | 2 | 19 | 4 | 46 | 4 | 48 | 2 | 0 | 6 | 113 | 53 | 715 |

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 639